# Xalqımıza qarşı bu qətliamlar yaddan çıxmayacaq

***Ermənistan Respublikası, eləcə də dünyanın bir çox ölkələrində yaşayan erməni diasporu əsrlər boyu xalqımıza qarşı nifrət siyasəti aparıb, dəfələrlə soyqırımları həyata keçiriblər. Bu qəddar və vəhşi siyasət nəticəsində zaman-zaman on minlərlə dinc soydaşımız etnik və dini mənsubiyyətinə görə kütləvi şəkildə, xüsusi amansızlıqla qətlə yetirilib, tarixi yurd-yuvasından qovulub, malı-mülkü əlindən alınıb.***



Bu gün dünyada heç kimə sirr deyil ki, Azərbaycan xalqına qarşı erməni təcavüzünün başlıca məqsədi tarixi Azərbaycan torpaqları hesabına erməni dövləti qurmaq və sonradan onu müxtəlif yollarla genişləndirməklə "Böyük Ermənistan" yaratmaq olub. Ermənilərin bu niyyətlərinin qismən də olsa reallaşmasında Rusiyanın və bəzi Qərb dövlətlərinin müstəsna rolu olub.

Azərbaycan əhalisinə qarşı bu siyasət Ermənistan dövləti səviyyəsində bu günə qədər davam etdirilməkdədir. Ümumilikdə isə, iki yüz ildən artıqdır ki, erməni-daşnak quldur birləşmələri və onların havadarları Azərbaycan türklərinə qarşı qətliamlar həyata keçirir, torpaqlarımıza qarşı iddialar irəli sürür, böyük fəlakətlər törədirlər. İyirminci yüzillik isə başdan-başa azərbaycanlıların kütləvi qırğınları ilə müşayiət olunub.

XIX əsrin əvvəllərindən başlayaraq Çar Rusiyası tərəfindən məqsədli şəkildə kütləvi surətdə Cənubi Qafqaza köçürülən ermənilər havadarlarının köməyi ilə soydaşlarımızın yaşadıqları minlərlə yaşayış məntəqəsini viran etmiş, bir milyondan artıq soydaşımızı soyqırıma məruz qoymuşlar. 1905-1907, 1914-1916, 1918- 1920, 1948-1953 və 1988-ci ildən bəri baş verən hadisələr erməni faşizminin, vəhşiliyinin canlı şahididir. 1992-ci il fevral ayının 26-na keçən gecə Xocalı şəhəri erməni silahlıları tərəfindən yerlə-yeksan edildi, yüzlərlə uşaq, qadın, qoca, dinc əhali məhv edildi. Öldürülən insanların sayı bir çox mənbələrdə 613 nəfər kimi göstərilsə də, əslində həmin gecə soyqırımına məruz qalan soydaşlarımızın sayı daha çoxdur.

Azərbaycan Prezidenti İlham Əliyev daim bizi erməni işğallarını, törədilmiş dağıntıları, soyqırımlarını unutmamağa çağırır. Xalqımız bu bəşəri cinayətləri heç zaman unutmamalı, eyni zamanda, saxta erməni təbliğatını ifşa etmək üçün daim mübarizə aparmalıdır.

***İqbal MƏMMƏDOV,***
***Milli Məclisin deputatı***